# Azad rayonların bərpası regionların inkişafı Dövlət proqramlarında yeni mərhələ olacaq...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Qarşıdakı 4 il ərzində Azərbaycanın sosial-iqtisadi inkişaf siyasətinin 6 əsas strateji məqsədi müəyyən edilib. Bu, 2021-ci il üçün büdcə zərfinə daxil olan "Azərbaycan Respublikasının 2021-ci il və növbəti 3 il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"ndə əksini tapıb.**

Gələn il üçün büdcə zərfinə daxil olan sənədə əsasən, həmin strateji məqsədlər aşağıdakılardır:

- Makroiqtisadi sabitliyin qorunub saxlanılması və fiskal dayanıqlığın gücləndirilməsi, iqtisadiyyatda şəffaflığın artırılması;
- Milli iqtisadiyyatın və ixracın rəqabət qabiliyyətinin yüksəldilməsi, dövlət mülkiyyətində olan müəssisələrin səmərəliliyinin artırılması, özəl investisiyaların genişləndirilməsi ilə prioritet sektorların inkişafının təmin edilməsi;
- Milli innovasiya ekosisteminin inkişaf etdirilməsi və insan kapitalının inkişafının sürətləndirilməsi, bilik iqtisadiyyatının rolunun artırılması;
- Regionların davamlı və tarazlı inkişafının təmin edilməsi və işğaldan azad edilən ərazilərin bərpası;
- Pandemiya və post-pandemiya dövründə əhalinin sağlamlığının qorunması, sosial müdafiə və təminatının gücləndirilməsi;
- Ekoloji tarazlığın qorunması, mövcud resurslardan, o cümlədən su resurslarından səmərəli istifadənin təmin edilməsi və yaşıl iqtisadiyyatın təşviq edilməsi.

### Regionların davamlı və tarazlı inkişafının təmin edilməsi və işğaldan azad edilən ərazilərin bərpası

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı Azərbaycan dövlətinin proqramının olduğu məlumdur. Hətta arxada qoyduğumuz illərdə bir neçə belə proqramın icra olunduğunun şahidi olmuşuq. Ancaq iki ildir ki, ölkəmiz yeni reallıqlar yaradıb. İşğal altında olan böyük ərazilərimiz azad edilib. Bunun milli iqtisadiyyatımıza da ciddi töhfə verəcəyi məlumdur. Məhz buna görə də hökumət gələcək inkişaf perspektivində regionların inkişafı sırasına işğaldan azad edilən ərazilərimizin bərpası məsələsini də qoyur. Buna görə də həmin istiqmaətin adı əvvəlkindən fərqlənir. "Regionların davamlı və tarazlı inkişafının təmin edilməsi və işğaldan azad edilən ərazilərin bərpası" adlanan bu sahəyə böyük diqqətin ayrıldığının və mühüm işlərin görüldüyünün şahidiyik. İqtisadiyyatın dinamik inkişafı üçün onun dayanıqlı olması və şaxələndirilməsi zəruridir. Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi və şaxələndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi təmin olunmalıdır.

### 2003-cü illə müqayisədə 2020-ci ildə regionlar üzrə vergi daxilolmaları 23,2 dəfəyə yaxın artıb

Hazırda qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün ölkənin regionlarında güclü iqtisadi potensial mövcuddur və bu məsələ diqqət mərkəzindədir. Ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramının uğurlu icrası öz növbəsində vergi daxilolmalarının artımına öz müsbət təsirini göstərib. 2018-ci illə müqayisədə 2020-ci ildə regionlardan vergi daxilolmaları 23,1 faiz artıb. Eyni zamanda, mərkəzləşdirilmiş büdcədən dotasiya almadan öz gəlirlərini yerli mənbələr hesabına təmin edən rayonların sayı 41-ə çatıb. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının qəbulundan əvvəlki 2003-cü illə müqayisədə 2020-ci ildə regionlar üzrə vergi daxilolmaları 23,2 dəfəyə yaxın artıb. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergi azad olmaları, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətlənməsində mühüm rol oynayır.



### Regionların inkişafında yeni mərhələ kimi, həm də işğaldan azad olunan rayonlarımızda bərpa-quruculuq işlərinin aparılması nəzərdə tutulur

Bölgələrdə iqtisadi aktivliyin və sahibkarlıq subyektlərinin gəlirlərinin artması, bir tərəfdən büdcə gəlirlərinin regional diversifikasiyasına müsbət təsir göstərir, digər tərəfdən isə regionların maliyyə imkanlarının yaxşılaşmasına əsas verir. Bu sıraya işğaldan azad edilən rayonların bərpası və ordakı resurslardan istifadə aiddir. Həmin bölgələr də Azərbaycanın yeni təsnifatlandırılmış iqtisadi zonalarına aiddir və regional anlayışı özündə ehtiva edir. Çox böyük təbii sərvətlərə malik həmin bölgələrin iqtisadiyyatımıza töhfəsini hiss etmək üçün əvvəl infrastruktur bərpa edilməlidir. Bunlar olmadan həmin rayonlar ölkə iqtisadiyyatına qatqı verə bilməz. Artıq Azərbaycan dövləti qısa müddət ərzində işğzldan azad edilən ərazilərimizdə böyük bərpa və quruculuq işlərini gördüyünü ortaya qoymuş oldu. Qısa müddət ərzində Şuşanı digər rayonlarımızla birləşdirən "Zəfər yolu" çəkildi, hazırda son tamamlama işləri aparılır. 3 aeroportun tikintisinə start verilib. Füzuli Beynəlxalq Aeropotuna ilk sınaq enişi uğurla baş tutdu. Bu baxımdan da tam əminliklə demək olar ki, regionların inkişafında yeni mərhələ kimi, həm də işğaldan azad olunan rayonlarımızda bərpa - quruculuq işlərinin aparılması nəzrdə tutulur. Bu tempdən görünür ki, qısa müddət sonra həmin ərazilərdə ölkə iqtisadiyyatında böyük faydalarını verməyə başlayacaqlar.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**